Əlixan Musayev

# MÖMİNƏ VERİLƏN SƏKKİZ MÜJDƏ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli, Rəhmli Allahın adı ilə!**

Dəyərli oxucular!

Allaha kamil şəkildə iman gətirmiş hər bir müsəlman bütün ibadətlərini yalnız Allahın rizasını qazanıb Onun mərhəməti sayəsində Cənnətə daxil olmaq üçün yerinə yetirir.

Cənnəti qazanıb Cəhənnəmdən qorunmaq yolunda Allahın kitabı və elçisinin ﷺ sünnəsi bizlərə bəxş edilmiş çox böyük nemətdir. Uca Allah, Onun buyruqlarına əməl edib qoyduğu qadağalardan çəkinən möminlər üçün Cənnət vəd edir və Allahın elçisi ﷺ belə möminlərin əlamətlərini öz hədislərində bizlərə açıqlayır.

Bu əlamətlər əməlisaleh möminin həm bu dünyada, həm də ölümündən sonra Cənnət əhlindən olmasına işarət edən mujdələrdir.

Uca Allah buyurur:

﴿أَلَآ إِنَّ أَوۡلِيَآءَ ٱللَّهِ لَا خَوۡفٌ عَلَيۡهِمۡ وَلَا هُمۡ يَحۡزَنُونَ * ٱلَّذِينَ ءَامَنُواْ وَكَانُواْ يَتَّقُونَ * لَهُمُ ٱلۡبُشۡرَىٰ فِي ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا وَفِي ٱلۡأٓخِرَةِ﴾

**“Bilin ki, <u>Allah dostlarının</u> heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər. O kəslər ki, <u>iman gətirmiş və *Allahdan* qorxmuşlar</u>. Dünya həyatında da, axirətdə də <u>onlara</u> müjdə vardır.”**[1]

Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: «**Uca Allah**

---

[1] “Yunus” surəsi, 62-64.

**buyurur: “Kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm. Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir. Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Əgər onu sevdimsə, onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən diləsə, ona dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm. Mən görəcəyim heç bir işdə tərəddüd etmirəm. Yalnız ölümdən həzər edən mömin bəndəmin canını aldıqda tərəddüd etməyim istisnadır. Hərçənd, Mən onun xoşlamadığını xoşlamıram, lakin onun ölməsi qaçılmazdır”».**[1]

[1] “Səhih əl-Buxari”, 6502.

[*Allahumə-hdini fimən hədəyt, və afini fimən afəytə, və təvəlləni fimən təvəlləytə*] Allahım, hidayət verdiyin kimsələr arasında mənə də hidayət ver! Salamatlıq bəxş etdiyin kimsələr arasında mənə də salamatlıq bəxş et! Dost qəbul etdiyin kimsələr arasında məni də dost qəbul et!”

## Mömin insana verilən səkkiz müjdə

**1-cisi,** insanların onu tərifləməsidir.

Rəvayət edilir ki, bir gün Peyğəmbərdən ﷺ soruşdular: “*Ya Rəsulullah! Əgər insanlar bir adamı etdiyi yaxşı əməllərinə görə tərifləsələr, bu tərif onu həlak edərmi?*” Rəsulullah ﷺ dedi: **“Bu, <u>möminə</u> qabaqcadan verilən bir müjdədir”.**[1]

---

[1] “Səhih Muslim”, 6891.

Tərif olunmağı sevməyən mömin insanlar birisinə yaxşılıq etdikdə deyərlər: **“Biz sizi yalnız Allah xatirinə yedirdirik və sizdən nə bunun əvəzini, nə də buna görə minnətdarlıq gözləyirik!”**[1]

Burada söhbət Allahdan qorxan mömindən gedir. Əgər adam kafir, fasiq və ya zalımdırsa, tərifin ona faydası olmur.

Əgər əməlisaleh insanlar mömin bir adamı tərifləyib: “Filankəs əxlaqlı insandır, namazlarını doğru-düzgün qılır, sədəqə verir, əmanətə xəyanət etmir, düz danışır, üzü nurludur” və buna bənzər xoş sözlərlə yad edirlərsə, bütün bunlar həmin mömin üçün bu dünyada müjdə sayılır.

[1] “əl-İnsan” surəsi, 9.

**2-cisi,** gözəl yuxu görməkdir.

Rəvayət edilir ki, Ubadə ibn əs-Samit ﷛ demişdir: «Mən Peyğəmbərdən ﷺ uca Allahın: **"Dünya həyatında da, axirətdə də onlara müjdə vardır"**[1] ayəsi barədə soruşdum, o da dedi: **"Bu, müsəlmanın özünün gördüyü, yaxud başqa birisinin ona aid gördüyü gözəl yuxudur"».**[2]

Başqa bir hədisdə Rəsulullah ﷺ demişdir: **"Peyğəmbərlikdən yalnız müjdələr qalmışdır".** *Səhabələr:* "Müjdələr nədir?"– deyə soruşduqda, o, demişdir: **"Gözəl yuxudur".**[3]

Bu mövzu ilə əlaqəli bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Möminin**

---

[1] "Yunus" surəsi, 64.

[2] "Sunən ət-Tirmizi", 2273, 3898; "Silsilə əl-Əhadis əs-Səhihə", 1786.

[3] "Səhih əl-Buxari", 6990.

**gördüyü gözəl yuxu peyğəmbərliyin qırx beş hissəsindən biridir".**

**3-cüsü,** insanların o mömini sevməsidir.

﴿ إِنَّ ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّـٰلِحَـٰتِ سَيَجْعَلُ لَهُمُ ٱلرَّحْمَـٰنُ وُدًّا ﴾

**"İman gətirib yaxşı işlər görənlərə gəlincə, Mərhəmətli *Allah* onlar üçün *qəlblərdə* sevgi yaradır".**[1]

Hədisdə də Peyğəmbər ﷺ belə demişdir: **"Allah bir qulunu sevdiyi zaman Cəbrailə: "Allah filankəsi sevir, sən də onu sev!"– deyə buyurur, Cəbrail də *o adamı* sevir. Sonra Cəbrail göy əhlinə xitab edib: "Allah filankəsi sevir, siz də onu sevin!"– deyə buyurur, göy əhli də onu sevir.**

---

[1] "Məryəm" surəsi, 96.

**Daha sonra yer üzündəkilər də ona rəğbət bəsləməyə başlayırlar".**[1]

Buna peyğəmbərləri ﷺ və onların ardıcıllarını misal göstərmək olar. Əsrlər boyu insanlar onlar üçün dua edib, edir və bundan sonra da – Qiyamətədək edəcəklər.

**4-cüsü,** etdiyi yaxşı işlərə sevinməsi, günahlara görə isə kədərlənməsidir.

Mömin adamın saleh əməllər etdikdə qəlbində rahatlıq tapması və bu əməlləri sevə-sevə yerinə yetirməsi, günah etdikdə isə narahat olması və tövbə edib ondan uzaqlaşması onun üçün bir müjdədir. Bu barədə rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Etdiyi yaxşı əmələ**

---

[1] "Səhih əl-Buxari", 3209; "Səhih Muslim", 2637.

**sevinən, günahına görə isə kədərlənən kimsə əsl mömindir”.**[1]

**5-cisi,** ölüm yatağında verilən müjdədir.

Bu xüsusda uca Allah buyurur:

﴿إِنَّ ٱلَّذِينَ قَالُواْ رَبُّنَا ٱللَّهُ ثُمَّ ٱسۡتَقَٰمُواْ تَتَنَزَّلُ
عَلَيۡهِمُ ٱلۡمَلَٰٓئِكَةُ أَلَّا تَخَافُواْ وَلَا تَحۡزَنُواْ وَأَبۡشِرُواْ
بِٱلۡجَنَّةِ ٱلَّتِي كُنتُمۡ تُوعَدُونَ * نَحۡنُ أَوۡلِيَآؤُكُمۡ فِي
ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا وَفِي ٱلۡأٓخِرَةِۖ وَلَكُمۡ فِيهَا مَا تَشۡتَهِيٓ
أَنفُسُكُمۡ وَلَكُمۡ فِيهَا مَا تَدَّعُونَ * نُزُلٗا مِّنۡ غَفُورٖ
رَّحِيمٖ﴾

**“Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutan**

---

[1] “Sunən ət-Tirmizi”, 2165; “Səhih əl-Cami”, 2546.

**kəslərə mələklər nazil olub *deyirlər:* “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli *Allah tərəfindən verilən* ziyafət kimi”.**[1]

Hədisdə də Rəsulullah ﷺ belə demişdir: **“İnsan ölüm yatağında ikən mələklər onun yanına enir. Əgər o, əməlisaleh insandırsa, mələklər ona belə buyururlar: “Ey gözəl bədəndə olan gözəl can, tərifə layiq olduğun halda çıx oradan! Sənə verilən rahatlığa və ruziyə,[2] üstəlik, Rəbbinin sənə**

---

[1] “Fussilət” surəsi, 30-31.

[2] Bu xüsusda Quranda belə buyurulur: **“*Can* boğaza yetişdiyi zaman siz *can verən adama* baxırsınız. Biz ona sizdən daha yaxın**

**qəzəblənməməsinə sevin!" Mələklər onun canı bədənindən çıxanadək belə deməyə davam edərlər".**[1]

Rəvayət edilir ki, Peyğəmbər ﷺ dəfn etmək üçün aparılan bir cənazəni görüb dedi: **"İstirahət edən kəs və bir də əlindən istirahət edilən kəs".** Səhabələr soruşdular: "Ya Rəsulullah, istirahət edən kəs və bir də əlindən istirahət edilən kəs nə deməkdir?" Peyğəmbər ﷺ dedi: **"Mömin adam dəfn edildikdə, dünyadakı yorğunluqdan və əziyyətlərdən qurtulub**

---

**oluruq, siz isə *bunu* görmürsünüz. Madam ki, siz *iddianıza görə* haqq-hesab olunmayacaqsınız və doğru danışanlarsınız, onda o canı geri qaytarın. Amma əgər o, *Allaha* yaxın olanlardandırsa, onda o, rahatlığa, gözəl ruziyə və Nəim bağına yetişər"** ("əl-Vaqiə" surəsi, 83-89).

[1] "Sunən İbn Macə", 4252; "Mişkat əl-Məsabih", 1627.

**Allahın rəhmətinə qovuşaraq canı rahatlıq tapır. Günahkar adama gəlincə, onun əlindən zara gəlmiş insanlar, məmləkətlər, ağaclar və heyvanlar onun əziyyətlərindən qurtularaq rahatlıq tapır”.** [1]

**6-cısı,** məzarlığa aparılarkən verilən müjdədir.

Rəvayət edilir ki, Ənəs ﵁ demişdir: *“Bir dəfə* bir cənazə aparılarkən biz onu xoş sözlərlə yad edib təriflədik. Peyğəmbər ﷺ: **“Vacib oldu!”**– dedi. Sonra başqa bir cənazə aparılarkən biz onu xoşagəlməz sözlərlə yad edib pislədik. Peyğəmbər ﷺ *yenə*: **“Vacib oldu!”**– dedi. Ömər ibn əl-Xəttab: “Nə vacib oldu?”– deyə soruşdu, Peyğəmbər ﷺ də buyurdu: **“Bunu**

---

[1] “Səhih əl-Buxari”, 6513; “Səhih Muslim”, 950.

**xoş sözlərlə yad etdiniz, Cənnət ona vacib oldu. O birini də xoşagəlməz sözlərlə yad etdiniz, Cəhənnəm ona vacib oldu. Siz Allahın yer üzündəki şahidlərisiniz!"**[1]

Bu hədisdə xüsusilə əməlisaleh möminlərin tərifləməsi qeyd edilir.

Qeyd edək ki, bidət əhlinin dəfnində özü kimilər onu tərif edə bilər. Lakin bu onun üçün müjdə sayılmır. Çünki hədisdəki söhbətdə haqq yolda olan müsəlmanların tərifləməsi qəsd edilir.

**7-cisi,** mömininin qəbirə qoyulduqda müjdələnməsidir.

Bu xüsusda rəvayət edilmiş hədisdə Bəra ibn Azib ﵁ demişdir: "Biz Peyğəmbərlə ﷺ birgə ənsardan olan

---

[1] "Səhih əl-Buxari", 1367.

bir kişinin dəfnində ikən Allahın elçisi ﷺ qəbirin yanında oturdu, biz də sakitcə onun ətrafında oturduq. O, əlindəki çubuğu yerə vururdu. Sonra başını qaldırıb buyurdu: **"Qəbir əzabından Allaha sığının!"** O bunu üç dəfə təkrar etdikdən sonra dedi: **"Mömin bəndə dünyadan köçüb axirətə qovuşduqda, göydən onun yanına üzləri günəş kimi parlaq mələklər enir. Onlar özləri ilə Cənnətdən kəfən və ətir gətirir,** ***onun*** **gözünün gördüyü son məsafədə oturub gözləyirlər. Sonra ölüm mələyi gəlib onun başının üstündə oturub deyir: "Ey gözəl ruh, Allahın mərhəmətinə və xeyir-duasına qovuşmaq üçün çıx** ***oradan*****!" Nəhayət, mömin bəndənin ruhu bədənindən, su damcısı qabın ağzından axıb töküldüyü kimi**

**çıxır. Ölüm mələyi ruhu götürdükdən sonra onu bir göz qırpımında, *oturub gözləyən* mələklərə təhvil verir, onlar da onu kəfənə büküb ətirləyirlər. Bundan sonra ondan, yer üzündə mövcud olan ən gözəl ətirin qoxusuna bənzər gözəl bir qoxu gəlir. Sonra mələklər onu götürüb göyə qaldırırlar. Göyə qalxarkən mələklərdən ibarət hansı toplumun yanından keçirlərsə, onlar: "Görəsən bu gözəl ruh kimin ruhudur?"– deyə soruşurlar. Onlar: "Bu, filankəsin oğlu filankəsdir"– deyə bu bəndəni *camaatın* onu həyatda ikən çağırdığı ən gözəl adla çağırırlar. Onlar birinci göyə gəlib yetişdikdə, göy qapılarının açılmasını xahiş edir və onun qapıları taybatay açılır. Hər bir göyün mələkləri o ruhu növbəti göyə qədər**

**beləcə yola salır. Nəhayət, yeddinci göyə gəlib çatdıqda, qüdrətli və əzəmətli Allah buyurur: "Mənim qulum barədə olan qeydləri İlliyyuna yazın, sonra da onu qaytarın yerə. Çünki Mən söz vermişəm ki, onları torpaqdan yaratdım, öləndən sonra ora qaytaracaq və *Qiyamət günü* bir daha oradan *dirildib* çıxardacağam". Mələklər onu bədəninə qaytardıqdan sonra iki mələk gəlib onu otuzdurur və: "Rəbbin kimdir?"– deyə soruşurlar. O: "Rəbbim Allahdır!"– deyə cavab verir. Onlar: "Dinin nədir?"– deyə soruşurlar. O: "Dinim İslamdır!"– deyə cavab verir. Onlar: "Sizə göndərilmiş o kişi kim idi?"– deyə soruşurlar. O: "Bu, Allahın elçisi ﷺ idi!"– deyə cavab verir. Onlar: "Həyatda ikən sən nə öyrəndin?"– deyə soruşurlar.**

**O: "Mən Allahın Kitabını oxuyub ona iman gətirdim və ona sadiq oldum"– deyə cavab verir. Bu vaxt göydən belə bir səda gəlir: "Mənim qulum doğru danışır. Cənnət nemətlərini onun önünə sərin və onun üçün Cənnətdən bir qapı açın!" Beləliklə, Cənnətin gözəl iyi və havası ona gəlir, qəbri də gözlərinin gördüyü son məsafəyə qədər genişlənir. Sonra gözəl görkəmli, əynində yaraşıqlı paltarı olan və üst-başından ətir iyi gələn bir kişi onun yanına gəlib deyir: "<u>Səni sevindirəcək bir xəbərə sevin! Bu, sənə vəd olunan gündür!</u>" Mömin: "Sən kimsən? Sənin üzündən xeyirxahlıq yağır!"– deyə soruşur. O da: "Mən sənin yaxşı əməlinəm!"– deyə cavab verir. Onda mömin dua edib deyir:**

**“Allahım, qoy Qiyamət günü tez gəlsin ki, mən öz ailəmə qayıdıb var-dövlətimə sahib olum”.**[1]

8-cisi, mömininin Qiyamət günü müjdələnməsidir.

﴿ يَٰعِبَادِ لَا خَوۡفٌ عَلَيۡكُمُ ٱلۡيَوۡمَ وَلَآ أَنتُمۡ تَحۡزَنُونَ * ٱلَّذِينَ ءَامَنُواْ بِـَٔايَٰتِنَا وَكَانُواْ مُسۡلِمِينَ * ٱدۡخُلُواْ ٱلۡجَنَّةَ أَنتُمۡ وَأَزۡوَٰجُكُمۡ تُحۡبَرُونَ ﴾

**“Ey qullarım, bu gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də. Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz. Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!”**[2]

---

[1] “Musnəd İmam Əhməd”, 18534; “Səhih əl-Cami”, 1676.

[2] “əz-Zuxruf” surəsi, 68-70.

## Son söz əvəzi...

Dəyərli bacı və qardaşlarım!

Qoy hər kəs öz əməlləri barədə və özünün aqibəti barədə düşünsün. Əgər bu əlamətləri özünüzdə görürsünüzsə, bunun üçün gecə-gündüz Allaha həmd edin, bunlardan dolayı təkəbbürlənməyin və ibadətlərinizi artırıb tutduğunuz doğru yoldan heç vaxt uzaqlaşmayın. Yox, əgər bu əlamətlər sizdə yoxdursa, əsla məyus olmayın. Gizlində və aşkarda etdiyiniz əməllərinizə bir daha nəzər salın, ibadətlərinizi artırın və Allahın haram buyurduqlarından olduqca uzaq durmağa çalışın. Çünki ibrət naqis başlanğıcda deyil, kamil sonluqdadır.